*Nizamişünaslıq 10, №1, 2024, səh. 66-75*

https://doi.org/10.59849/3006-2403.2024.1.66

***Yaşar QASIMBƏYLİ***
***Filologiya elmləri doktoru***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu***
***E-mail: yashargasimov@mail.ru***

# "XOSROV VƏ ŞİRİN" VƏ "FƏRHAD VƏ ŞİRİN" MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ MÜSTƏVİSİNDƏ
## (Akademik Həmid Araslının elmi tədqiqatları əsasında)

*Açar sözlər:* Akademik Həmid Araslı, müqayisəli ədəbiyyat aspekti, Nizami Gəncəvi, "Xosrov və Şirin", Əlişir Nəvai, "Fərhad və Şirin".

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xosrov və Şirin" əsəri Şərq və dünya ədəbiyyatında möhtəşəm yenilənmə yaradan azsaylı sənət nümunələrindən sayılmaqdadır. "Xosrov və Şirin" yazıldığı vaxtdan çox keçməmiş bu əfsanəvi dastanın şöhrəti Qafqaz dağlarının arxasında qalmamış, bütün Yaxın Şərqə – Türküstana, Ərəbistana, Hindistana, Çinə qədər yayılmış, bir qədər sonralar isə Avropa ölkələrinə qədər gedib çatmışdır. "Xəmsə"yə daxil olan beş dastanın hər biri Azərbaycanda və dünyada böyük əks-səda doğurmuş, şöhrət qazanmışdır. Amma onların arasında "Xosrov və Şirin"lə "Leyli və Məcnun"un yayılma dərəcəsi və miqyası ölçüyə gəlməzdir. Hər iki poemaya onlarla müxtəlif səpkili və üslublu ithaflar, nəzirələr yazılmışdır. "Xosrov və Şirin"dən təsirlənərək yazılan məsnəvilərin sayı dəqiq göstərilmir. Ancaq "Leyli və Məcnun"ların sayının 200-ə yaxınlaşdığını tədqiqatçılar qeyd etmişlər. Ərəb, fars, türk və Avropa dillərində yazıb-yaradan bir çox görkəmli şairlər Nizami "Xəmsə"sinə müraciət etməyi özlərinə şərəf bilmişlər. Şərqin birinci "Xəmsə"sinə ən gözəl və mükəmməl cavabları Hindistanda yaşayıb-yaratmış türk əsilli və farsdilli şair Əmir Xosrov Dəhləvi, fars-tacik şairi Əbdürrəhman Cami və qədim Türküstanda ulu özbək ədibi, mütəfəkkiri Əlişir Nəvai yaratmışlar. Xüsusən, Ə.Nəvainin "Fərhad və Şirin" dastanı Nizami Gəncəvi "Xosrov və Şirin"inə yazılmış cavablar sırasında ən mükəmməli hesab olunmaqdadır. Ə.Nəvainin Fərhadı özünün bədii-fəlsəfi potensialına görə dünya ədəbiyyatının ən monumental surətlərindən biridir. Dahi özbək şairinin "Xəmsə"nəvislikdə cahanşümül uğur qazanması, Azərbaycanın söz sənətinə yaxından bələdliyi və ustad Nizamiyə sonsuz sevgisi təsadüfi deyildi, əlbəttə. Qədim və zəngin mədəniyyətə malik özbək xalqının ulu sənətkarı və mütəfəkkiri Əlişir Nəvai Azərbaycanda əsrlərdən bəri seçilən və yüksək dəyərləndirilən misilsiz şairlərdən biridir. Dahi sənətkarın hələ sağlığında ikən qardaş Azərbaycanla yaxın və işgüzar əlaqələri olmuş, onun sələfləri və xələfləri arasında bu məmləkətdən olanlar xüsusilə seçilmişlər. Əksər Özbəkistan və Azərbaycan ədəbiyyatşünaslarının vurğuladığı kimi, Əlişir Nəvainin bir ədəbi şəxsiyyət və sənətkar kimi formalaşmasında Əfzələddin Xaqani, Nizami Gəncəvi, Arif Ərdəbili, Şah Qasım Ənvar, Seyyid İmadəddin Nəsimi və başqaları mühüm rol oynamışdırsa, Ə.Nəvainin şəxsən özü ilə ünsiyyətdə olmuş və onun yaradıcılığının sehrinə düşmüş azərbaycanlı söz və sənət ustadları da tarixdən məlumdur. Böyük sənətkarın Kişvəri, Xülqi, Həbibi və başqaları kimi istedadlı müasirləri onun qüvvətli təsiri ilə əllərinə qələm almış, cığatay türkcəsinin zərif lirik üslubunda gözəl bədii nümunələr qoyub getmişlər. Türküstanda Azərbaycan ədəbiyyatı və mədəniyyətinin böyük təəssübkeşi, həm də təbliğatçısı olan Ə.Nəvai Azərbaycan poetik ənənələrinin davamçısı olduğu kimi, özü də təkrarsız sənət örnəkləri icad etmiş və qardaş Azərbaycanda uzun müddət – XV əsrdən XXI əsrin əvvəllərinə qədər yaşarı qüdrət kəsb

etmiş, Şəkidə və Şamaxıda, Qarabağda və Naxçıvanda, Şuşada və Bakıdakı şairlər məclisləri və poeziya dərnəklərinin müraciət etdikləri ən məşhur, aparıcı və öncül sənətkarlardan sayılmışdır.

Ümumən, Azərbaycan və Özbəkistan ədəbiyyatşünaslarının yekdil fikrinə görə, XX əsrə qədərki klassik poeziyamıza qüvvətli təsir göstərən ən qüdrətli sənətkarlardan biri və birincisi məhz Əlişir Nəvai olub. Elə bu səbəbdən də milli ədəbiyyatşünaslığımızın təməl daşlarını qoyanlar Nizami, Xaqani, Nəsimi, Xətai, Füzuli, M.P.Vaqif kimi mümtaz sənət nümayəndələri ilə yanaşı, Əlişir Nəvaiyə də əvvəl başdan xüsusi diqqət ayırmış, türkdilli söz sənətinin təkamülündə onun xidmətlərini vurğulamışlar. Təsadüfi deyil ki, orta əsrlərdən etibarən Cənubi Qafqazda meydana gəlmiş təzkirələrdə Əlişir Nəvainin adı, əsərləri, yaradıcılığı Azərbaycan klassiklərinin irsi və bədii sənət nümunələri ilə qoşa çəkilirdi. Burada xüsusi qeyd etmək yerinə düşər ki, Azərbaycan türkcəsində yaradılmış təzkirələrdə Əlişir Nəvainin ədəbiyyat tarixindəki mövqeyi və onun ədəbi irsinə münasibət ayrıca bir elmi tədqiqat mövzusudur. Biz isə aşağıda professional ədəbiyyatşünaslıqda Əlişir Nəvai irsinə və onun "Fərhad və Şirin" dastanına münasibətdən bəhs etmək niyyətindəyik.

Azərbaycan ədəbiyyatşünaslığında Əlişir Nəvai əsərlərinin ilk dəyərləndirilmə tarixini, ümumən, Şərqdə "kritika" terminini birinci olaraq tətbiq etmiş böyük şair, dramaturq, publisist və münəqqid M.F.Axundzadədən başlamaq məqsədə müvafiqdir. Klassik Şərq ədəbiyyatını və poeziyasını yenə birincilərdən olaraq yeni dövrün mənəvi-estetik ehtiyacları nöqteyi nəzərindən qiymətləndirən M.F.Axundzadə Ə.Firdovsi, N.Gəncəvi, S.Şirazi, H.Şirazi, M.Rumi və başqaları ilə bir sırada Ə.Nəvainin şəxsiyyətini və şeiriyyətini də dilə gətirir. Ə.Nəvainin ictimai-siyasi və ədəbi-tarixi xidmətlərini yüksək qiymətləndirərək yazırdı: "Sultan Hüseyn Bayqaranın vəziri Əlişir Nəvai babamızın irsi bu gün bir çox müasir şairlərin əsərlərindən daha çox həyati və gərəklidir" [1, s.189].

XX əsrin əvvəllərindən etibarən Cənubi Qafqaz və xüsusən, Azərbaycan ədəbi mühitində Ə.Nəvai yaradıcılığına maraq daha da genişlənməyə başlayır. 1905-ci ildən sonra sürətlə çoxalmağa başlayan müxtəlifyönlü ədəbi nəşrlərdə Ə.Nəvai irsi təbliğ olunur. Onu da qeyd etməliyik ki, Tiflisdə, Bakıda, Gəncədə və başqa mədəni mərkəzlərdə işıq üzü görən bu qəzet və jurnallarda Ə.Nəvai daha çox milli bir sənətkar və türkdilli mədəniyyətin nümayəndəsi kimi təqdim olunurdu. Ə.Nəvaini türk xalqlarının söz sənəti və mədəniyyətinin inkişafına müqayisə edilməz töhfələrinə görə onu Azərbaycan ədəbiyyatının klassikləri ilə bir sırada səciyyələndirir və qiymətləndirirdilər. Məsələn, Azərbaycan professional ədəbiyyatşünaslığının əsasçısı Firidun bəy Köçərli də məşhur "Azərbaycan ədəbiyyatı materialları" kitabında Ə.Nəvaini bizim ədəbiyyatımızın klassiklərindən biri kimi vermiş və ondan bütün türk xalqlarının klassiki kimi bəhs etmişdi [2, s.64]. 1926-cı ildə Ə.Nəvai həzrətlərinin ilk yubiley tədbirlərinin və təntənələrinin Bakı şəhərində Azərbaycan ədəbi-mədəni ictimaiyyəti tərəfindən keçirilməsi də həmin yanaşma və düşüncənin bilavasitə ifadəsi idi. 20-ci illərdə və 30-cu illərin ortalarına qədər Azərbaycanda nəşr edilən ədəbiyyatşünaslıq tədqiqatlarında B.Çobanzadə, İ.Hikmət, S.Mümtaz, Ə.Nazim, Ə.Abid, M.Ələkbərli və başqalarının elmi araşdırmalarında Ə.Nəvai yaradıcılığına müxtəlif nöqteyi-nəzərlərdən müraciət edilmiş, dahi sənətkar məhz doğma və milli ədəbi sima olaraq qiymətləndirilmişdir!

Akademik Həmid Araslının elmi araşdırmaları Azərbaycanda nəvaişünaslığın inkişafı tarixində yeni və mühüm mərhələdir. Görkəmli alimin Ə.Nəvai yaradıcılığında nəzər-diqqətini isə "Xəmsə" və "Fərhad və Şirin" dastanı daha çox cəlb etmişdir. Məsələnin bu cəhətini müəllif böyük sevgi dastanının 1968-ci ildəki azərbaycanca tərcüməsinə və nəşrinə yazdığı "Böyük şair" adlı ön sözdə ayrıca qeyd etmişdir: "Ə.Nəvai yaradıcılığında "Xəmsə" mühüm yer tutursa, "Xəmsə"yə daxil olan poemalar içərisində də "Fərhad və Şirin" mərkəzi əhəmiyyətə malik bir sənət əsəri olaraq nəzər-diqqəti cəlb edir. Poemanın əsil qəhrəmanı Fərhaddır. Şair bütün arzularını bu surətin mübarizəsində əks etdirib, bu ideal insanın

faciəsində göstərir” [3, s.6]. Azərbaycan ədəbiyyatşünaslığında Nizami Gəncəvi, Əlişir Nəvai və Məhəmməd Füzuli irsinin ən görkəmli tədqiqatçılarından biri Fərhad obrazının genezisi ilə bağlı da mühüm mülahizələr irəli sürür: “Fərhad surəti ədəbiyyatda Ə.Nəvai ilə başlamır. Hələ Nəvaidən üç əsr əvvəl dahi Azərbaycan şairi Nizami Gəncəvi “Xosrov və Şirin” adlı poemasında əsərin əsas qəhrəmanı olan Xosrova qarşı duran əməkçi insan surəti olaraq Fərhadı seçmiş, ondan sonra Əmir Xosrov Dəhləvi, Arif Ərdəbili və Marağalı Əşrəf bu surəti dəfələrlə işləmişlər. Xüsusən, XIV əsrdə Azərbaycan şairi Arif Ərdəbili özünün “Fərhadnamə” adlı poemasında Fərhadı əvəzsiz bir sənətkar kimi təsvir etmişdir” [3, s.6].

Ustad ədəbiyyatşünas Şərq ədəbiyyatındakı ən məşhur obrazlardan biri olan Fərhadın ədəbi şəcərəsi və mənşəyindən qısaca bəhs etdikdən sonra dahi Ə.Nəvai yaratdığı surətin özəlliyini açmağa girişərək, aşağıdakıları xüsusi vurğulayır: “Lakin Ə.Nəvai bu surəti əsərin baş qəhrəmanı seçdiyi zaman bütün sələflərindən fərqlənir. Bu isə şairə öz zəngin fikirlərini ətraflı göstərmək üçün imkan yaratmışdır” [3, s.7].

Akademik H.Araslı Azərbaycan ədəbiyyatşünaslığında birinci olaraq, Nizami və Nəvainin Fərhad surətlərini qarşılıqlı şəkildə dəyərləndirir, onları müqayisəli ədəbiyyatşünaslıq müstəvisində nəzərdən keçirir: “Nizaminin əməkçi insanlar sırasından seçib, sadə bir daşyonan olaraq göstərdiyi Fərhad əsərdə ikinci dərəcəli surətlərdən biridir. O, əsərə gec daxil olub, tez də məhv olur. Oxucu Fərhadı çox görmür, ancaq bu qısa tanışlıqda Fərhad surəti əbədiləşdirilir. Şair onu unudulmaz mərkəzi surətlər səviyyəsinə qaldırır” [3, s.7]. Ə.Nəvainin Fərhadı isə tamamilə fərqli və özünəməxsus poetik tərcümeyi-hala malikdir. “Fərhad və Şirin”də adından da göründüyü kimi, mərkəzi surət dərəcəsinə yüksələn Fərhad özünün ədəbi-ictimai mənşəyinə, cəmiyyətdə tutduğu mövqeyə və fəaliyyət miqyaslarına görə də Nizami Fərhadından ciddi surətdə fərqlənir. Baş obraz Fərhadın mənəvi-əxlaqi və ictimai-həyati keyfiyyətləri daha dərin və təsiredicidir. Zatən, adi əməkçi və sənətkar Fərhadla padşah ailəsində doğulub, boya-başa çatmış, orada xüsusi təhsil və tərbiyə görmüş, cəmiyyətin ali təbəqəsinə məxsus bir məşhur şahzadə və sənətkar arasında mühüm fərqlərin olması təbiidir. Məhz bu nöqteyi-nəzərdən çıxış edərək alim aşağıdakıları qeyd edir: “Əlişir Nəvai isə Fərhadı bir şahzadə kimi göstərib, onu naz-nemətlər içində böyütsə də, şahlara, şahzadələrə xas səciyyəli şəxsiyyət kimi deyil, bəlkə öz arzularını ifadə edən ideal bir insan kimi canlandırır. Şair özünün bu ideal surətində bütün müsbət xüsusiyyətləri toplayır” [3, s.7]. Alimin vurğuladığı kimi, Əlişir Nəvainin Fərhadının da xarakterik cəhəti onun zəhmətkeşliyi və əməyi sevməsidir. Ustad Nizami Fərhadının bu özəl və qabarıq xüsusiyyəti Ə.Nəvainin sevimli qəhrəmanının da mənəviyyatını müəyyənləşdirən əsas əxlaqi keyfiyyətdir. Eyni zamanda, Ə.Nəvai şahzadə Fərhadın əməksevərliyi ilə yanaşı olaraq, onun insanları və sadə xalq nümayəndələrini ürəkdən sevməsini qabartmağa çalışmışdır. Fərhad, sözün əsl mənasında, Ə.Nəvai idealının və arzularının emosional təzahürüdür: “Fərhad hər şeydən əvvəl əməyi sevir, ona hörmət bəsləyir. Onun ilk mühüm məziyyəti tişə və külüng işlətməyi sevməsində və bacarmasında görülür, Fərhadın əməyə olan məhəbbəti onun əməkçi insanlara olan məhəbbətinin əsasını təşkil edir. Öz zəhməti və məharətilə xalqının əməyini yüngülləşdirməyə çalışır və buna müvəffəq də olur” [3, s.7].

Ustad Nəvaişünas H.Araslı Nizami və Nəvai Fərhadları arasındakı başqa mühüm özəllikləri də nəzərimizə çatdırır və onları elmi-nəzəri cəhətdən əsaslandırır. Əgər “Xosrov və Şirin”də Fərhad, əsasən, bir usta və sənətkardırsa, “Fərhad və Şirin”də isə o, eyni zamanda, həm usta, sənətkar, həm də cəsur bir igid, pəhləvan, əjdaha və əhrimənlərə qalib gələn yenilməz qəhrəmandır. Fərhad Xosrovun ordularına qarşı cəsarətlə döyüşməyi bacarır, özünün mahir pəhləvan və döyüşçü kimi ox atmaq, qılınc çalmaqda misli-bərabəri olmayan bir cəngavər olduğunu da nümayiş etdirir. Ə.Nəvainin Fərhadı fiziki və ruhani, daxili və xarici qüdrətin birliyinə, harmoniyasına görə özündən əvvəlki Fərhadlardan ciddi surətdə

fərqlənir: "Fərhad eyni zamanda cəsur bir igid, səadət düşməni olan əjdahalar və əhrimənlərlə vuruşan bir mübarizdir. Ə.Nəvai qəhrəmanının döyüş səhnələrini təsvir edəndə, onun ox atmaqdakı məharətini, qılınc vurmaqdakı şücaətini göstərəndə də ürəkdən sevinir. Xüsusən, Xosrov orduları qarşısında əyilməz dağ vüqarı ilə dayanan dağçapanı qalibiyyət rəmzi kimi dalğalandırır. Bu qüdrət, qüvvət və cəsarət ilə şöhrətlənən qəhrəman həm də saf bir məhəbbətlə sevən sadiq və fədakar bir aşiqdir" [3, s.8]

Təcrübəli tədqiqatçı alim N.Gəncəvi və Ə.Nəvai Fərhadları arasındakı ümumi və həmahəng cəhətləri də qeyd edib. Məsələn, Fərhadın həddindən artıq sadədilliyi, insanpərvərliyi və yetərincə qətiyyətli olmaması məhz belə cəhətlərdəndir. "Fərhad və Şirin" baş qəhrəmanının mənəvi üstünlüyünü və böyüklüyünü şəkilləndirən bu qiymətli insani sifətlər, eyni zamanda, onun faciəsinə və məhvinə səbəb olur: "Lakin Fərhad bütün bu qüdrət və əzəmətilə bərabər sadədildir, həddindən artıq insanpərvərdir. Əhrimənlərə qalib gəlib, əjdahaları öldürən qəhrəman öz sadədilliyi üzündən aciz bir hiyləgərin əlində məğlub olur, Fərhad imkan olduğu halda öz düşməni Xosrovu öldürmür. Zindandan qaça bilmək imkanına malik olduğu halda qaçmır, gözətçilərin cəzalanacağını nəzərə alır, öz xeyri üçün bir çox günahsızların məhv olmasına razı olmur. O, həddindən artıq şikayətlənir, hər zaman özünə cəfa verir. Bütün bunlar onun məhv olmasına səbəb olur" [3, s.8].

Dahi özbək şairinin coşqun ilham və sənətkarlıqla yaratdığı Şirin obrazı da müqayisəli ədəbiyyatşünaslıq kontekstində və hərtərəfli şəkildə nəzərdən keçirilməyə layiqdir. Hər iki böyük sənətkarın Şirini özünəməxsus və ortaq cəhətləri ilə diqqəti çəkir. Hər iki möhtəşəm qadın obrazının müqayisəsi, ümumən, "Xəmsə" konsepsiyalarının həm özəl, həm də ümum-intibah xarakterini və miqyasını müəyyənləşdirməyə imkan yaradır. Nizami və Nəvai Şirinləri fərqli estetik missiyanı yerinə yetirirlər. Amma onların hər ikisi böyük eşqin daşıyıcısı və ifadəçisidirlər: "Nəvai Şirin surətini də maraqlı işləmişdir. Nizamidə Şirin qiyabi bir məhəbbətə tutulur, ölənə qədər Xosrova sadiq bir məşuqə olmaqla bərabər, ədalətli bir şah, bir hökmdar kimi də göstərilir. Nəvai isə Şirini tam mənası ilə Fərhadı sevən bir məşuqə, sadiq, vəfalı, fədakar bir məşuqə olaraq tərənnüm edir" [3, s.8].

Ə.Nəvainin Şirini də həm daxili, həm də xarici gözəlliyi ilə ideal bir obraz kimi diqqətə layiqdir. Şirin özü kimi yüksək mənəviyyat sahibi olan böyük qəhrəman və hünər sahibi, Çin xaqanının oğlu şahzadə Fərhada bir könüldən min könülə aşiq olur. O, öz məhəbbətinə bütün ömür boyu sadiq qalır. Məhz Ə.Nəvainin sənətkarlıq məhəbbəti və məharəti nəticəsində Şirin Şərqin əfsanəvi sevgi məşuqəsi Leyli səviyyəsinə yüksəlir. Şirinin özünəməxsus bir sevgi rəmzi və məbudəsi kimi yüz illərdən bəri türk xalqlarının söz sənətində tərənnüm olunması həm də Ə.Nəvai qələminin ecazkar gücünün nəticəsidir: "Şirin hünərini gördüyü Fərhadı sevdikdən sonra bu məhəbbəti həyatı bahasına qoruyur. Adsız, sansız, lakin qüdrətli bir sevgilini hamıya tərcih edir. Böyük bir ölkənin hökmdarı olan Xosrovun məhəbbətini rədd edir. O, var-dövlət, şan-şöhrət istəmir, həqiqi məhəbbəti hər şeydən üstün tutur, bu məhəbbət uğrunda da intihar edir.

Ə.Nəvai dərin bir məhəbbətlə sevdiyi Şirinin daxili iztirablarını bacarıqla təsvir edib, bu vəfalı məşuqənin xarici gözəlliyi ilə mənəvi yüksəkliyini eyni səviyyədə göstərir. Xüsusən, intihar fəslində Şirin tədbirli bir qadın kimi nəzər-diqqəti cəlb edir" [3, s.8].

Akademik Həmid Araslının yuxarıdakı dərin mənalı təhlillərində və ideya-estetik müqayisələrində Ə.Nəvai qəhrəmanlarının mənəvi aləmi, Şərqdə məşhur olan bu cazibədar obrazların özünəməxsusluğu elmi cəhətdən uğurlu dəyərlənirilir. Əgər Nizami Şirininin mənəvi əzəməti və xarakteri başqa, öz dövrü üçün aktual və müasir ədəbi-estetik ölçülər əsasında gerçəkləşirsə, Ə.Nəvai Şirininin mənəvi özünəməxsusluğu orta əsrlərin sonu və yeni dövrün bədii meyarları müstəvisində reallaşır. Məhz buna görə də Nizaminin Şirini XII əsrdə nə qədər yeni bir bədii-estetik vahid sayılırsa, Ə.Nəvainin sevimli qadın obrazı da o dərəcədə

orijinal bir bədii surətdir. Ümumən, Nizami və Nəvainin Şirin və Leyli obrazları birinci və ikinci Şərq Renessansının ən möhtəşəm qadın surətləri kimi dəyərləndirilməyə layiqdir.

Nizami və Nəvainin epik qəhrəmanları arasındakı əsas fərqlərdən biri onların realist səciyyəsi ilə bağlıdır. Nizami Gəncəvinin epik surətləri daha həyati və realist məzmun daşıyır. Ə.Nəvainin məşhur sevgi rəmzləri dərəcəsinə yüksəlmiş fədakar insanları isə ideal obrazlar təsiri bağışlayır. Nizami qəhrəmanları öz həyati-təbii zəiflikləri, naqislikləri ilə gözlərimiz önündə canlandığı halda, Ə.Nəvainin Fərhadı və Şirini son dərəcə ideal, gözəl və nöqsansız təqdim edilir. Bu isə təbii ki, hər iki şairin əməl və tətbiq etdikləri yaradıcılıq dünyagörüşləri və estetikalarının bilavasitə təsiri və nəticəsi idi. Aydın olur ki, Nizami “Xəmsə”sində intibah realizminin təsiri və təzahür əlamətləri üstünlük təşkil edir.

“Fərhad və Şirin” dastanındakı bir sıra başqa surətlər haqqında da görkəmli ədəbiyyatşünasın düşüncələri diqqətəlayiqdir. Xüsusən, poemanın özəlliyini vurğulayan bir neçə obrazlar barəsində müqayisəli mülahizələri alimin əsərin məziyyətlərini son dərəcə həssaslıqla araşdırdığını göstərir: “Əsərdə Şapur və Bəhram surətləri bir-birlərini tamamlayan yaxşı dost, vəfalı sirdaşlar olaraq göstərilir. Bu həqiqi dostlar qəhrəmana qardaşdan da yaxındırlar” [3, s.8]. Müəllif cəmi bir neçə cümlə ilə Fərhad və Şapur münasibətlərini elmi cəhətdən obyektiv səciyyələndirir. Əgər “Xosrov və Şirin”də Xosrov və Şapur dostluğu necə yaddaqalan və sirayətedicidirsə, “Fərhad və Şirin”də Fərhad və Şapur qardaşlığı da oxucunun qəlbini fəth edir. Şapur Fərhadın doğma qardaşından ona mehribandır, hər bir xətti-hərəkətində, addımında öz dostunu dərindən düşünür, Fərhada can yandırır. Öz gələcək həyatını və taleyini Fərhadsız, ondan ayrı təsəvvür edə bilmir. Ə.Nəvai onların mənəvi münasibətləri müstəvisində taledaş dostlar obrazını yaratmaqla, həm də ülvi dostluğu tərənnüm edir: “Fərhadın atası öldükdən sonra Xaqan olan qardaşı Fərhadı axtarmır, bəlkə öz şahlığından nigaran olub onun gəlib təxti və tacı alacağı haqqında fikirləşir. Bəhramdan da ehtiyat etdiyi üçün onun getməsinə icazə verir. Lakin Şapur Fərhada təsadüf etdiyi ilk gündən etibarən ölənə qədər ona kömək edir. Onun şad günündə sevinir, qəmli dəqiqələrində kədərlənir. Heç bir təmənnası olmadan Fərhadın yolunda olmazın əziyyətlər çəkir. Dəfələrlə həyatını təhlükəyə atır” [3, s.8].

Dastanın yaddaqalan iştirakçılarından biri olan Bəhram haqqında da akad. H.Araslının fikirləri diqqəti çəkir: “Bəhram da eyni yolla hərəkət edir. O, uşaqlıq dostu Fərhadın Məğrib-Zəmində fəlakətə düşdüyünü eşidən kimi ordu toplayıb onun köməyinə gəlir. Dostunun faciəsini eşidib müqəssirlərə divan tutmaq istəyir. Hər işi öz yoluna qoyduqdan sonra dostunun qəbri üzərində qalıb geri qayıtmır” [s.9]. Ustad ədəbiyyatşünas alimin təhlillərindən aydın olur ki, “Fərhad və Şirin”də iki təmiz qəlbli gəncin böyük sevgisi ilə yanaşı, həm də onların qədrini bilən dostlarının sədaqəti də coşqun ilhamla vəsf olunur. Şapurun və Bəhramın Fərhada heyrətamiz sədaqətini Ə.Nəvai ən yüksək insani duyğular dərəcəsində poetik təqdim və təsvir edir. Poemada Fərhad və Şirin insani, eyni zamanda, ilahi sevginin, Şapur və Bəhram isə təmənnasız sədaqətin rəmzi və özünəməxsus zirvəsi kimi tərənnüm olunurlar. Şirin həqiqi məhəbbəti hər şeydən üstün tutub, bu sevgisi uğrunda bütün çətinliklərə dözüb, axırda intihar etdiyi kimi, Fərhadın sadiq dostları Şapur və Bəhram da öz qardaşlıq əhdi-peymanlarından geri çəkilmir, Fərhada olan inam və duyğularından qətiyyən vaz keçmirlər. Ümumən, aydın olur ki, Fərhadın və Şirinin bir-birinə misilsiz sevgisi onları necə ucaldır və möhtəşəmlik zirvəsinə qaldırırsa, Şapurun və Bəhramın Fərhada sədaqəti də baş qəhrəmanın böyüklüyünə, onun Şərq ədəbiyyatında orijinal və bənzərsiz bir aşiq kimi şöhrətlənməsinə, İntibah epoxasının mahiyyətinə və rəmzinə çevrilən məşhur insan – obrazlar sırasında yer almasına xidmət edir.

“Fərhad və Şirin”də diqqəti cəlb edən əsas obrazlardan biri Xosrov – Pərvizdir. Akad. H.Araslı Xosrovun Nizami və Nəvai dastanlarında fərqli bədii funksiyaları yerinə yetirdiyini

diqqətimizə çatdırır. Müəllif bu məsələyə toxunaraq yazır: "Xosrov – Pərviz əsərdə yeganə tarixi simadır. Nizami poemasının əsas qəhrəmanı olub, əsər boyu məhəbbətin təsiri ilə tərbiyə edilən bu surət Nəvai tərəfindən məhəbbətə yabançı, şöhrət və şəhvət düşgünü, azğın bir istilaçı kimi göstərilir. Nəvai Xosrov simasında zülmkar bir şah surəti yaradıb, şahlığın mənfi xüsusiyyətlərini onun şəxsiyyətində göstərməyə çalışmışdır" [3, s.9].

Ümumən, Ə.Nəvainin əsərində Fərhad və Xosrovun mənəvi qiyafələri onların öz etirafları və dialoqları vasitəsi ilə müqayisəli şəkildə səciyyələndirilir. Şirinə sahib olmaq üçün Xosrov Məhinbanunun padşahlıq etdiyi məmləkət – Ərməni – zəminə qoşun yeridir. Şirinin ölkəsini mühasirəyə alır. Öz sevgilisinin köməyinə gələn Fərhad ilk dəfə məhz burada Xosrovla üz-üzə gəlir. Mühasirəyə alınmış qala divarları üzərində Fərhadı görən Xosrov dərhal qısqanclıq alovunda qovrulmağa başlayır. Dastanda Xosrovun Şirinin şəhərini qoruyan qala divarlarına yaxınlaşması və Fərhadla qarşılaşması cazibədar bir üslubda təsvir olunur:

Xosrov da sürətlə gəldi yetişdi,
Qaladan yarım mil aralı düşdü.
Yerbəyer olunca qoşun ərkanı,
Özü seyrə çıxdı, gəzdi hər yanı.
Onun arxasınca min igid oğlan
Səyirdib atları etdilər cövlan.
Hasar burclarına baxaraq tez-tez,
Fikrində min tədbir tökürdü Pərviz [4, s.186].

Qala divarlarını gözdən keçirərkən Xosrovun diqqətini çəkən məhz Fərhadın son dərəcə əzəmətli görünüşü olur. Şahın haqqında eşitdiyi məşhur pəhləvanın və daşyonanın bu adam olduğuna şübhəsi qalmır. Şairin öz qəhrəmanının həmin yaşantılarını emosional tərzdə təsvirinin özü gözəl bir poeziya nümunəsidir:

Xosrov ona tərəf salanda nəzər,
Sancıldı köksünə iti bir xəncər.
Dedi: – Təəccübdür, kimdi o əjdər,
Görkəmi könlümü qıldı mükəddər.
Sanki adətidir könül qan etmək,
Gedib kimliyini öyrənmək gərək [4, s.186].

Xosrovun nökərləri Fərhaddan əl çəkmir, onunla sual-cavab etmək, onun kim və necə bir insan olduğunu səbirsizliklə öyrənmək istəyirlər. Fərhad onlara, xüsusən də Xosrova öz kimliyindən və şəxsiyyətindən, tərcümeyi-halından söz açmalı olur:

Fərhad cavab verdi: "Yox mənim adım,
Adlı-sanlı olmaq deyil muradım.
Elə bir torpağa döndü ki, cismim,
Bu torpaq içində yox oldu ismim.
İçimdə eşq odu tüstülənəndən,
İsmim də, cismim də əl üzdü məndən.
Məhəbbət üstümdən götürmüş adı,
O gündən mən ada, ad mənə yaddı...
Torpaq vücudumu hərdən edib yad,
Deyirlər adıma bəlalı Fərhad" [4, s.187].

Fərhadın özü haqqında söylədikləri Xosrovu dəhşətə gətirir. Fərhadın sözü-söhbəti Xosrovda qısqanclıq və qəzəb oyadır. Onun yüksək mənəviyyatı, mənəvi cəhətdən mükəmməlliyi Xosrovun varlığını və mahiyyətini inkar edir. Həqiqətən də, Fərhadın ideal və

ilahi yüksəkliyi önündə, akad. H.Araslının vurğuladığı kimi, "məhəbbətə yabançı, şöhrət və şəhvət düşgünü, azğın bir istilaçı kimi" öz mövcudluğunu nümayiş etdirən Xosrov Fərhada kin və qəzəbini gizlədə bilmir. Xosrovun həmin andakı yaşantılarını da şair məharətlə ifadə edir:

"Dedi: – Fikirləri gözəldir üzdən,
Əslində zəhərdir, aldanmaram mən.
Nə qədər sözləri olsa da əlvan,
Süslü bir ilandır, xof edər insan.
Düzdür, ifadəsi safdır, rəvandır,
Mənə ki mənfəət deyil, ziyandır.
Əlindən möhnətdir, qəmdir nəsibim,
Mən bir aşiqəmsə, odur rəqibim.
O şərik çıxmışdır mənimlə mülkə,
İstər çatsın ona həm yar, həm ölkə.
Bu tikən yolumdan alınsın gərək,
O qaya üstündən salınsın gərək.
Onu göydə gəzib, yerdə tapmışam,
Gərəkdir əlindən qurtarsın yaxam.
Təmizləsəm bağı həmin tikəndən,
Mənimdir, şübhəsiz, o şux yasəmən" [4, s.187].

Akad. H.Araslı "Nəvai, Xosrov simasında zülmkar bir şah surəti yaradıb, şahlığın mənfi xüsusiyyətlərini onun şəxsiyyətində göstərməyə çalışmışdır" deyərkən, ilk növbədə, Xosrovun xətti-hərəkətlərinə, eyni zamanda, onun bilavasitə öz sözlərinə və daxili monoloq – düşüncələrinə istinad edir. Fərhadın sözləri və cavabları da yalnız onun özünə yox, həm də Xosrova münasibətimizi formalaşdırır. Xosrov öz atlılarına əmr edib, tez Fərhadı qolları bağlı hüzuruna gətirməyi buyurur. Şahın bu yersiz və qeyri-insani hərəkətindən hirslənən Fərhad ona müraciətlə deyir: " Dedi: – Ey qorxusuz, şöhrətli sərdar, /Sənə fələk də yar, taleyin də yar. /Bilmirəm, Xosrovsan, Xosrov deyilsən, /Mənim sözlərimə bir qulaq as sən. /Hərgah gəlməyimi eyləsən arzu, /Dəvət eləməyin yolu deyil bu. /Zorla gətirməyə bir natəvanı /Neçin göndərirsən on pəhləvanı? /Qəsdin öldürməksə mən bivəfanı, /Sənə xeyri dəyməz, mənə ziyanı. /Bil ki, bu dəstənin qanlısı sənsən, /Əlinlə orduna kəfən biçənsən. /Desən, uydurmadır bu sözlər haşa, /Haqqın qüdrətinə gəl et tamaşa. /Gözlə başındakı şiş dəbilqəni, /Bax bu daşla təbrik edirəm səni!" [4, s.188]. Qüvvətli və qüdrətli Fərhad nəhəng daşlarla şahın başındakı dəbilqəni vurub əzir, onun bayrağının sancıldığı yeri yox edir. Fərhad acgöz və axmaq padşahı da, onun ordusunu da məhv etmək gücündə və iqtidarında olduğunu bildirir. Amma nahaq qan tökülməsini istəmir, qoşunu qırğına verməməsini ondan qəti şəkildə tələb edir. Görkəmli alimin qeyd etdiyi kimi, bu səhnələrdə el pəhləvanı və qəhrəmanı Fərhadın və zalım hökmdar Xosrovun mənəvi aləmi, onların şəxsiyyətinin fərqli cəhətləri gözlərimiz önündə canlanır. Ə.Nəvai mahir bir psixoloq və insanşünas kimi öz qəhrəmanlarının xüsusiyyətlərini məharətlə açıb göstərir:

Dedi: – "Ey bir elin tək hökmdarı,
Saysız orduların böyük sərdarı.
Mənə bu hünəri el eşqi verdi,
Bunu sən də gördün, qoşun da gördü.
Əmr et, atlıların qayıtsın geri,
Qurtarmaz əlimdən, yoxsa heç biri.
Dəmir dəbilqəni başdan qopardan,

İstəsə başı da qopardar inan.
Bir bax qoşununda, ey şanlı sərdar,
Çoxdur sənin kimi polad taclılar.
Zülm etmək istəsə sizlərdən hər kəs,
Haqq ona göndərər belə bir əvəz:
Bir Məcnun ataraq qayadan daşı,
Ayırar bədəndən o zalım başı.
Keçirəm qanından, şükr elə buna,
Başını götürüb düzəl yoluna!
Budur son fərmanım, son sözüm mənim,
Varında, canında yox gözüm mənim [4, s.188].

Xosrovu öz düşüncələri və yaşantıları necə ifşa edirsə, Fərhadın ona amansız xitabı və ittihamları da şahın zavallı və zalım mənəviyyatını o dərəcədə açıb tökür. Öz ehtiraslarının qulu olan Xosrov Fərhadın yüksək mənəvi-əxlaqi sifətləri ilə müqayisədə daha cılız və aciz görünür. Fərhadın qarşısında hər dəfə yenilən və məğlub olan Xosrovun gücündən, qoşunundan, zülmə və istibdada söykənən hakimiyyətindən başqa heç bir güvənci yoxdur. Fərhadın şaha xitabən söylədiyi sözlər əslində həyat və insanlıq dərsləri qədər mənalı və qiymətlidir:

Səni səltənətə çatdıran Allah
Mənim nəsibimi torpaq etdi ah.
Sən taxtlar üstündə ömür sürərkən,
Onu bu torpaqla bir tuturam mən.
Şah hansı bir işdən güdürsə fayda,
Onu özü üçün az bilir gəda.
Cəfa meydanında at sürən insan
Bir ləzzətmi alır öz tutduğundan?
Səncə yaxşımıdır qılınc çəkərək,
Tuta orduların ərzi duman tək;
Qan töküb ellərə sala vəlvələ,
Özgə torpağını keçirə ələ?
Gör kimin yurdunu bərbad edirsən,
Sevdiyin bir könlü naşad edirsən.
Yar üçün min əzab toru qurursan,
Hələ bir sevgidən dəm də vurursan.
Eşqə can verdiyin budurmu, ey vah,
Bumu şərti, ah Allah, Allah!
Bumu eşqlə zar olmağın sənin?
Qüssədən biqərar olmağın sənin?.." [4, s.189].

Ə.Nəvai bu emosional fəlsəfi xitabın Xosrovda oyatdığı dərin təəssüratın əlamətlərini də incə bir şəkildə əks etdirib: "Atdığı daşlarla dediyi sözlər /Göstərdi ki, onda var böyük hünər. /Sardı Xosrovu bir dərin iztirab, /Fərhadın sözünə tapmadı cavab. /Məsləhət bilmədi o dönsün geri, /Yaxud ordusunu çəksin irəli. /Ordusu yanında rəngi tutuldu, /Qala əhlindən də xəcalət oldu. /Başında tunc papaq olub yüz para, /Söz qılıncı açıb qəlbində yara. /Bütün ümidləri mum kimi söndü, /Nəhayət, ordunun yanına döndü" [4, s.189].

Ustad ədəbiyyatşünas alim poemada Xosrov və Fərhad obrazlarının bədii-fəlsəfi müqayisələrindən də bəhs edir. Həmin müqayisəli bədii-psixoloji təhlillərin surətlərin mahiyyətini açmağa xidmət etdiyini nəzərimizə çatdırır. Müəllif əsərdə öz mənfi və müsbət

surətlərinin mənəvi portretini və xarici görkəmlərini də məharətlə canlandırmasını Ə.Nəvainin təkrarsız sənətkarlıq nümayiş etdirməsinin mühüm təzahürlərindən biri kimi qeyd edir. Akad. H.Araslı yazır: “Nəvai Xosrovu dəfələrlə Fərhadla qarşılaşdırır, oxucu bu müqayisələrdə Xosrovun mənəvi düşgünlüyü ilə tanış olur. Fərhad şücaəti, mənəvi qüdrəti, hətta xarici görkəmi ilə Xosrovdan qat-qat üstün göstərilir. Xosrov onu vuruş meydanında mərd-mərdanə məğlub etməkdən aciz qalıb, hiyləyə müraciət edir. Hiylə ilə əsir aldığı Fərhadın kəskin cavabları və haqlı tələbləri önündə özünü itirir, onu dar ağacı ilə susdurmaq istəyir. Özünün haqsız olduğunu dəfələrlə dərk edən Xosrov şöhrət və şəhvət təhriki ilə öz cinayətlərini dərinləşdirməyə çalışır. Fərhadı ortadan götürmək üçün tədbirlər görür” [3, s.9].

## ƏDƏBİYYAT


1. M.F.Axundzadə. Əsərləri. 3 cilddə. 2-ci cild “Elm”, Bakı, 1988, s.189.
2. Köçərli F. “Azərbaycan ədəbiyyatı materialları”. Bakı, “Azərnəşr”, 1981.
3. Həmid Araslı. Böyük şair. Ön söz. Bax: Əlişir Nəvai. Fərhad və Şirin. Azərbaycan Dövlət nəşriyyatı, 1968.
4. Əlişir Nəvai. Fərhad və Şirin. Azərbaycan Dövlət nəşriyyatı, 1968.
5. Y.E.Bertels. Nizami. İzdatelьstvo Akademii Nauk SSSR. Moskva, 1956.


***Яшар ГАСЫМБЕЙЛИ***
***Доктор филологических наук***

## «ХОСРОВ И ШИРИН» И «ФАРХАД И ШИРИН» НА УРОВНЕ СРАВНИТЕЛЬНОГО ЛИТЕРАТУРОВЕДЕНИЯ
### (На основе научных исследований академика Гамида Арасли)
### *РЕЗЮМЕ*

*Ключевые слова:* Академик Гамид Арасли, аспект сравнительного литературоведения, Низами Гянджеви, «Хосров и Ширин», Алишир Наваи, «Фархад и Ширин»

В статье, основанной на научных исследованиях академика Гамида Арасли, говорится о сравнительном анализе главных героев поэм «Хосров и Ширин» гениального азербайджанского поэта Низами Гянджеви и «Фархад и Ширин» великого узбекского мыслителя и поэта Алишира Наваи. В исследовании учитываются уникальные черты любимых героев Низами Гянджеви Хосрова и Ширин, а также главных героев Фархада и Ширин Алишира Наваи. В частности, подчеркивается великолепие художественного и философского потенциала А. Наваи Фархади. Автор также отмечает, что если персонажи Низами существенно отличаются от героев Фировси, то главные герои поэмы Наваи также отличаются от героев Низами. В исследовании подчеркивается, что новые и актуальные соображения академика Гамида Арасли 60-х годов, имеют особое значение в современном научном процессе.

***Yashar GASIMBEYLI***
***Doktor of Philolofy***

**“KHOSROW AND SHIRIN” AND “FARHAD AND SHIRIN” AT THE LEVEL OF COMPARATIVE LITERATURE**
**(Based on scientific research by academician Hamid Arasli)**
***SUMMARY***

*Key words:* Academician Hamid Arasli, aspect of comparative literature, Nizami Ganjavi, “Khosrow and Shirin”, Alishir Navai, “Farhad and Shirin”

The article, based on the scientific research of academician Hamid Arasli, talks about a comparative analysis of the main characters of the poems “Khosrow and Shirin” by the brilliant Azerbaijani poet Nizami Ganjavi and “Farhad and Shirin” by the great Uzbek thinker and poet Alishir Navai. The study takes into account the unique features of Nizami Ganjavi's favorite heroes Khosrov and Shirin, as well as the main characters Farhad and Shirin Alishir Navai. In particular, the magnificence of the artistic and philosophical potential of A.Navai Farhadi is emphasized. The author also notes that if Nizami’s characters differ significantly from Firovsi’s heroes, then the main characters of Navai’s poem also differ from Nizami’s heroes. The study emphasizes that the new and relevant considerations of academician Hamid Arasli of the 60s are of particular importance in the modern scientific process.

***Daxil oldu: 12.05.2024-cü il***